HACIQABUL

№ 03
(683)

14 fevral
2018-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti

# Ötən ilin uğurları builki uğurlarımızın başlanğıcıdır

## *Fevralın 10-da Hacıqabul rayonunun 2017-ci ildə sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş hesabat yığıncağı keçirildi*



***Yığıncaqda Prezident Adminmistrasiyasının məsul işçisi İbrahim Mustafayev, Milli Məclisin deputatı Rəfael Hüseynov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, ayrı-ayrı idarə, müəssisə, təşkilat rəhbərləri, rayonun şəhər, qəsəbə, kənd İƏD üzrə nümayəndələri və bələdiyyə sədrləri, sahibkarlar və ziyalılar iştirak edirdi.***

Tədbirdən öncə rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, rəsmi qonaqlar və bir qrup rayon fəalları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, abidə önünə tər gül dəstələri düzdülər.

Sonra iştirakçılar rayon Mədəniyyət evinin foyesində təşkil olunmuş, rayonda istehsal olunan yerli sənaye və kənd təsərrüfatı məhsullarından ibarət sərgi ilə tanış oldular.

Yığıncaq öz işini rayon Mədəniyyət evinin akt zalında davam etdirdi.

Əvvəlcə tədbir iştirakçıları rayonda il ərzində bütün sahələrdə görülən işləri özündə əks etdirən videoçarxa tamaşa etdilər.

Sonra rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov yığıncağı açaraq hesabat məruzəsi ilə çıxış etdi, il ərzində görülən işlər, qarşıda duran vəzifələri nəzərə çatdırdı.

(Məruzə geniş şəkildə "Hacıqabul" qəzetinin 31 yanvar 2018-ci il tarixli sayında dərc olunmuşdur.)

RİH Başçısı çıxışında ilk növbədə diqqəti yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasına, iclasda dövlət başçısının nitqindən irəli gələn fikir və müddəalara cəlb etdi. Qeyd etdi ki, iclasda giriş nitqi ilə çıxış edən dövlətimizin başçısı 2017-ci ildə dünyada, regionda və ölkəmizdə cərəyan edən hadisələrdən danışmışdır.

Dövlətimizin başçısı giriş nitqində göstərmişdir ki, Azərbaycan 2017-ci ildə surətlə və uğurla inkişaf etmiş, həyatın bütün sahələrində əldə edilmiş nəticələr ölkəmizin ümumi inkişafına böyük töhfə vermişdir. Dövlətimizin başçısı qeyd etmişdir ki, bu gün dünyanın müxtəlif yerlərində risklər, təhlükələr artır, qanlı münaqişələr, qarşıdurmalar geniş vüsət alır. Azərbaycanda isə sabitlik, təhlükəsizlik, normal həyat təmin edilir. Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu aksiomadır. Bunu biz yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf da dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır, sərmayə qoyuluşu dayanır. Bir sözlə sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi və sosial inkişafı, beynəlxalq arenadakı artan rolu sabitliyin təminatçısıdır.

Ölkədə bərqərar olmuş ictimai-siyasi sabitlik şəraitində əldə olunan uğurlar






xalq-iqtidar birliyinin nəticəsidir. Məhz bu səbəblərdən respublikamız yola saldığımız 2017-ci ildə iqtisadi sahədə çox böyük uğurlar qazanmışdır. Ötən ildə ölkəmizin beynəlxalq nüfuzu daha da artmışdır.

Davos ümumdünya iqtisadi Forumunun hesablamalarına əsasən Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək dünya miqyasında 35-ci yerdə dayanmışdır. Bu, çox böyük göstəricidir. Biz uzun illərdir ki, MDB məkanında liderik.

İl ərzində respublikamızda ümumilikdə qeyri-neft sektoru 2,5, sənaye sahəsində qeyri-neft sektoru 3,6, kənd təsərrüfatı 4,1 faiz artmışdır. İl ərzində ölkə iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulmuşdur. İnsanlara daha böyük məbləğdə ünvanlı dövlət sosial yardımı verilmişdir. Bu gün 116 min ailə, təqribən 400 minə yaxın insan hər ay dövlətdən orta hesabla 150 manat yardım alır.

Ötən il ölkədə 221 mindən çox yeni iş yerləri açılmışdır ki, onlardan 177 mini daimi iş yeridir.

Ötən ildə valyuta ehtiyatlarımız 4,5 milyard dollar artaraq 42 milyard dollara çatmışdır.

Məlum olduğu kimi 2017-ci il Azərbaycanda "İslam həmrəyliyi ili" elan edilmişdir.

2018-ci ildə Azərbaycanın müstəqilliyinin 100 ili tamam olur. Dövlətimizin başçısı bunu nəzərə alaraq bu ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etmiş və müvafiq Sərəncam imzalamışdır. Bu mühüm sənəd Şərqin ilk demokratik dövləti olan Cümhuriyyətimizin şanlı tarixi ilə bərabər, hərtərəfli inkişaf edən müstəqil Azərbaycanımızın qısa müddətdə keçdiyi yolu ölkə daxilində və beynəlxalq aləmdə geniş təbliğ etməyə stimul yaratmışdır.

Cənab Prezident nitqinin sonunda bir daha bildirmişdir ki, 2017-ci il ölkəmiz üçün uğurlu olmuşdur, ölkəmiz gələcəyə nikbinliklə baxır. Əminəm ki, bu il də uğurlu il olacaqdır.

2017-ci il Hacıqabul rayonunun sosial-iqtisadi və mədəni həyatında da yadda qalan hadisə və işlərlə əlamətdardır.

Hesabat ilində iqtisadiyyatın bütün sahələri üzrə məhsul buraxılışının həcmi 322 milyon 779 min 900 manat olmuşdur. Məhsul buraxılışında qeyri-dövlət sektorunun payı 2016-cı ilə nisbətən 12,8 faiz artaraq 68,8 faiz olmuşdur.

Sənayedə məhsul buraxılışının həcmi 18,9 milyon manat olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 1,5 milyon manat çoxdur. İl ərzində bu sahədə çalışanların sayı 293 nəfər artaraq 1286 nəfər təşkil etmişdir. Sənayedə bir işçiyə düşən orta aylıq əmək haqqı 299 manata çatmışdır.

2017-ci ildə əsas kapitala investisiyalar qoyuluşu 93 milyon 450 min, o cümlədən, tikinti quraşdırma işlərinə 92 min 820 min manat olmuşdur. Bu isə ümumilikdə 2016-cı ilə nisbətən 73 milyon 221 min manat çoxdur. İl ərzində 5 milyon 726 min manatlıq əsas fondlar istifadəyə verilmişdir. Rayonda 165 nəfərin çalışdığı 3 tikinti təşkilatı fəaliyyət göstərmiş və onların gücü ilə 2 milyon 344 min manatlıq iş görülmüşdür. Hesabat ilində 1 milyon 169 min m2 ümumi mənzil fondu, 18 min 77 m2 yaşayış sahəsi istifadəyə verilmişdir.

Rayonun iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edir. Hesabat dövründə rayonda kənd təsərrüfatı məhsulunun buraxılışının həcmi 129 milyon 731 min manat təşkil etmişdir.

2017-ci ilin məhsulu üçün 14409 hektarda taxıl əkilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 616 hektar artıqdır. Zəmilərdən 44861 ton taxıl məhsulu əldə olunmuşdur. İstehsal olunmuş məhsulun 24136 tonunu buğda, 20725 tonunu isə arpa təşkil edir. Hər hektardan məhsuldarlıq buğdada 32,3, arpada 29,9 sentner olmuşdur.

2017-ci təsərrüfat ili ərzində 1267 ton pambıq, 11675 ton bostan, 6796 ton tərəvəz məhsulu, 5142 ton qarğıdalı, 461 ton kartof, 2550 ton şəkər çuğunduru, 190 ton soya, 11314 ton meyvə, 262 ton üzüm istehsal olunmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 266,8 ton pambıq, 22 ton kartof, 3576 ton qarğıdalı, 19301 ton şəkər çuğunduru, 150 ton soya, 338 ton tərəvəz, 109 ton meyvə və 1 ton üzüm məhsulu çox istehsal olunmuşdur.

Hesabat dövründə diri çəkidə 8274 ton ət, 17 min 253 ton süd istehsal edilmişdir. İl ərzində yumurta istehsalı 23 milyon ədəd artaraq 350 milyon 497 min ədəd, yun istehsalı isə 3 ton artaraq 228 ton təşkil etmişdir.

Ötən il "Aqrolizinq" ASC-nin Hacıqabul Aqrosevis filialı tərəfindən rayonun torpaq mülkiyyətçilərinə 70% güzəştli qiymətlərlə 950 ton mineral gübrələr satılmışdır. Ötən ildən etibarən rayonda baramaçılığın inkişafına diqqət artırılmışdır. Bu məqsədlə rayon ərazisində 33 min tut ağacı yetişdirilmişdir ki, bunun 5 min ədədi ötən il əkilmişdir. Hesabat ilində kümçülərimiz tərəfindən 250 kq barama istehsal edilmişdir.

Hesabat dövründə kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahələrinin becərilməsində sərf etdikləri yanacaq və sürtkü materiallarına görə hər hektara 50 manat olmaqla 2312 nəfərə 1 milyon 25 min 70 manat, o cümlədən, 765 nəfər buğda istehsalçılarına 55 min 335 manat məbləğində subsidiya verilmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rayonumuza səfəri zamanı söylədiyi "Mən Hacıqabulun daha da sürətlə inkişaf etməsini istəyirəm" - fikrinin reallaşması üçün rayonda bütün qüvvələr səfərbərliyə alınmışdır.

Rayonda aqroparkların yaradılması istiqamətində də bir sıra işlər həyata keçirilmişdir. Padar qəsəbəsi ərazisində "Azərsun" Holding tərəfindən 1625 hektar sahədə iri aqropark yaradılmışdır. Bu aqroparkda infrastruktur təşkil edilmiş, pivot suvarma sistemi quraşdırılmışdır. 611 ha sahədə buğda, 525 ha sahədə şəkər çuğunduru, 100 ha sahədə pambıq, 75 ha sahədə qarğıdalı, 156 ha sahədə soya əkilmişdir. Aqroparkda illik istehsal gücü 20 min ton süd olan 2000 başlıq heyvandarlıq (iri buynuzlu malqara) kompleksinin tikintisi işləri davam edir.

Meyniman kəndində 1936 ha torpaq sahəsi olan "Muğanaqro" parkda infrastruktur yaradılmış, 2 ədəd mal damı, 1 ədəd yem anbarı, 4 ədəd qoyun damı, inzibati bina və digər yardımçı binalar tikilmişdir. Aqroparkın nəzdində 1560 baş qoyunu olan ferma fəaliyyət göstərir. Ötən ildə hər birinin sahəsi 2 ha olan 5 ədəd müasir tipli istilikxananın tikintisi başa çatdırılmışdır. Bundan əlavə illik istehsal gücü 5000 ton süd olan 700 başlıq heyvandarlıq (iri buynuzlu mal-qara) kompleksi yaradılmış və ilkin mərhələdə 130 baş "simmental" cinsli iri buynuzlu mal -qara gətirilmişdir.

Rayonun Atbulaq kəndi ərazisində 19,91 hektar torpaq sahəsində "AZERBROOD" MMC tərəfindən illik istehsal gücü 9,6 milyon ədəd yumurta olan quşçuluq müəssisəsinin tikintisi işləri davam etdirilir. Tikinti işləri başa çatdıqdan sonra burada 100 nəfərin məşğulluğu təmin olunacaqdır.

Atbulaq kəndində daha bir müəssisənin "Hajigabul Greenhouse" MMC tərəfindən 17 hektar ərazidə müasir tipli istixananın tikintisi davam etdirilir. Burada İspaniya texnologiyası ilə dibçək üsulu ilə tərəvəz məhsulları yetişdiriləcəkdir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 iyul tarixli Sərəncamına əsasən rayonda Hacıqabul Sənaye Məhəlləsi yaradılmışdır.

Sonra RİH Başçısı cari ildə görüləcək işlərdən, həyata keçiriləcək layihələrdən danışdı, aqrar sahəyə diqqətin daha da artırılacağını qeyd etdi.

Məruzə ətrafında rayon Maliyyə Şöbəsinin müdiri Vüqar İbrahimov, rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov, rayon Suvarma Sistemləri İdarəsinin rəisi İbrahim İbrahimov, DSMF rayon şöbəsinin müdiri Xalis Həsənov, rayon Heydər Əliyev Mərkəzinin direktoru Aytən Zülfəliyeva çıxış etdilər.

Prezident Administrasiyasının məsul işçisi İbrahim Mustafayev və Milli Məclisin deputatı Rəfael Hüseynov yığıncaqda çıxış edərək rayonda bir il ərzində görülən işlərdən, qarşıda duran vəzifələrdən danışdılar. Bir il ərzində görülən işlərin qənaətbəxş olduğunu nəzərə çatdırdılar.

Hesabat yığıncağında məruzə və çıxışlar dinlənilərək müvafiq qərar qəbul olundu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə yığıncaq iştirakçıları adından müraciət qəbul edildi.

***"Hacıqabul"***

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaranmasının altıncı ili geniş qeyd edildi





***Fevralın 13-də Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaranmasının altıncı ildönümü münasibətilə Hacıqabul rayonunda tədbir keçirildi.***

Tədbirdən öncə rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon Şöbəsinin əməkdaşları, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon fəalları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül dəstələri düzdülər.

Rayon Heydər Əliyev Mərkəzində davam etdirilən tədbiri rayon İcra Hakimiyyətinin birinci müavini Aslan Səmədov açaraq Xidmətin əməkdaşlarını təbrik etdi, qeyd etdi ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı ilə uğurla davam etdirilən ordu quruculuğu prosesi yeni mərhələyə qədəm qoyub. Bu gün Azərbaycan ordusu istənilən an düşmənə sarsıdıcı zərbə vurmaq, torpaqlarımızı işğaldan azad etmək iqtidarındadır.Ordumuzda ruh yüksəkliyi və vətənpərvərlik hissləri olduqca yüksəkdir.2016-cı ilin Aprel döyüşləri bunu nəinki düşmənə, bütün dünyaya nümayiş etdirdi.

Tədbirdə çıxış edən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəisi Nurlan Abbasov qeyd etdi ki, bu gün müstəqil Azərbaycanın ordu quruculuğu prosesi uğurla davam etdirilir. Ordu dövlətin suverenliyini və ərazi bütövlüyünü təmin edən əsas qüvvə kimi dövlət quruculuğunun tərkib hissələrindən biridir.Xidmətin yarandığı gündən genişmiqyaslı tədbirlər həyata keçirildiyini deyən N.Abbasov qeyd etdi ki, səfərbərlik hazırlığı və səfərbərlik işinin təşkili, vətəndaşların qeydiyyata alınması, hərbi xidmətə hazırlanması və müddətli hərbi xidmətə çağırılmasının təşkili, Silahlı Qüvvələrin çağırışçılarla komplektləşdirilməsi, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi, müddətli hərbi xidmətə çağırışaqədərki hazırlığı sahəsində əhəmiyyətli nəticələr əldə edilib. Diqqətə çatdırdı ki, çağırış yaşına çatmış gənclərin müddətli həqiqi hərbi xidmətə cəlb edilməsi Xidmətin fəaliyyətinin mühüm istiqamətlərindəndir. Hazırda müharibə şəraitində olan ölkəmizdə səfərbərlik hazırlığı və müddətli həqiqi hərbi xidmətə çağırış işi Xidmətin üzərinə böyük məsuliyyət qoyur. Bu məsələlərin yüksək səviyyədə yerinə yetirilməsi məqsədilə bir sıra məqsədyönlü tədbirlər həyata keçirilib və Xidmətin hər bir əməkdaşı bundan sonra da ümummilli lider Heydər Əliyev ideyalarına sadiq qalacaq, ölkə Prezidenti İlham Əliyevin irəli sürdüyü bütün vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacaqdır.

Tədbirdə çıxış edən rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov, rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələsgərov, rayon Veteranlar Şurasının sədri Əlibala Rəsulov Xidmətin yaranmasının ildönümü münasibətilə təbriklərini çatdırdı, altı il ərzində görülən işləri yüksək qiymətləndirdi.

***"Hacıqabul"***

# 26 il ötsə də...

## *Xocalı faciəsi yaxınlaşdıqca...*

***Tarixin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırıma məruz qalan Azərbaycan xalqı növbəti dəfə belə faciə ilə 1992-ci ilin fevralında Xocalıda üzləşdi. Sovet imperiyasının süqutu ilə yaranan mürəkkəb tarixi və ictimai-siyasi şəraitdə dövlət müstəqilliyini yenicə qazanan Azərbaycanın üzləşdiyi ərazi itkisi ilə yanaşı, əsrin ən dəhşətli faciələrindən birini yaşaması ölkənin yeni tarixinə qara hərflərlə yazıldı. Bu bəşəriyyət tarixinə qanla yazılan bir gün idi.***




Qarabağın qanlı-qadalı illərində dəhşətli qırğınlar törədilən, yer üzündən silinərək yaddaşlarda daşlaşan Xocalı, əsrin ən böyük faciəsi idi. Bu faciəli gündən illər ötsə də, xalqımız bu günü heç vaxt unutmur. Hər ilin 26 fevral günü respublikamızın hər yerində ümumxalq hüzn günü kimi yad edilir, anım mərasimləri keçirilir. Həmin gün rayonumuzda da ümumrayon hüzn günü qeyd edilir, rayonun ayrı-ayrı əmək kollektivlərində Xocalı faciəsi ilə əlaqədar anım mərasimləri keçirilir.

1992-ci il fevralın 25-dən 26-a keçən gecə silahlı erməni dəstələri keçmiş sovet ordusunun Xankəndində yerləşən 366-cı motoatıcı alayının ağır texnikası və şəxsi heyətinin köməyi ilə Azərbaycanın qədim şəhəri üzərinə hücum etdi, şəhərin dinc əhalisinə divan tutdu. O zaman şəhərdə qalan 3 minə yaxın əhali insanlığa xas olmayan ən ağır vəhşiliklərlə üzləşdi. Həmin o şaxtalı-boranlı soyuq fevral gecəsinə qədər xocalılar dörd ay idi ki, səksəkə, vahimə içərisində yaşayırdılar. Lakin son ana qədər doğma ocaqlarını tərk etmədilər. Çünki bu millətdə Vətənə, torpağa elə bir bağlılıq var ki, onu heç bir qüvvə əvəz edə bilməz. Elə məhz bu bağlılıq xocalılara unudulması mümkün olmayan dəhşətlər yaşatdı.Xocalıda ermənilərin törətdikləri dəhşətli hadisələr Azərbaycan tarixinə qanlı hərflərlə yazıldı. Çünki Xocalıda törədilən faciə təkcə Azərbaycan xalqına qarşı deyil, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qanlı cinayətdir.

Düz 26 il ötür bu faciədən. Amma bir anlıq adamda elə təəssürat yaranır ki, o günün acılarından bu günümüzə qalan tək tarixi faktlar, statistik rəqəmlər və çəkilən görüntülərdir. Halbuki, o dəhşətli günün acısını özü ilə bu günə daşıyan yüzlərlə insan var aramızda. Çoxlarımızdan fərqli olaraq onlar həm yaşadıqları dəhşəti, həm də Xocalı dərdini ürəklərində ömürlük yük tək daşımaq kimi bir taleyə məhkumdurlar.

Xocalı soyqırımını törətməklə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, oğul və qızlarımızı müqəddəs Vətən və dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etdi. O günlərdən 26 il ötməsinə baxmayaraq həmin qanlı gecədə erməni təcavüzkarlarının törətdikləri vəhşilik və cinayətin dəhşətləri yaddaşlardan heç vaxt silinməyəcək.

***"Hacıqabul"***

# Ölməzliyə qovuşan qəhrəman



***Fevralın 7-də şəhər 9 saylı tam orta məktəbdə hər bir azərbaycanlının qəlbində ən ali ehtiram və dərin ağrılarla yaşayan Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun anadan olmasının ildönümü ilə əlaqədar ədəbi-bədii kompozisiya keçirildi .***

Mübariz yaşasaydı bu gün onun 30 yaşı olacaqdı. O, 22 il yaşamasına baxmayaraq ölməzliyə imza atdı. Qəhrəmanın əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.. Maarifləndirici xarakter daşıyan tədbirdə milli qəhrəmanımıza həsr olunmuş müxtəlif şeirlər səsləndi ,həyat yolundan bəhs edildi, video çarx nümayiş olundu. Xususilə, Mübarizin qəhrəmanlıq yoluna həsr olunan kompozisiya hamıya duyğulu anlar yaşatdı.

VIII sinif şagirdləri Nərmin Məmmədli, İradə Əliyeva , IX sinif şagirdi Gülzar Ələkbərovanın və digər şagirdlərin ifası hamının diqqətini çəkdi.

Tədbirdə iştirak edən rayon Təhsil Şöbəsinin hərbi metodisti Nəriman Ağayev, rayon Qarabağ müharibəsi veteranları şurasının sədri Mehman Süleymanov, Yaqub Teymurov, Aprel döyüşlərinin iştirakçısı Rizvan Qarayev, Qarabağ müharibəsi əlili, Muğan qəsəbə məktəbinin hərbi rəhbəri Nemət Qarayev, məktəbin ədəbiyyat müəllimi Xanım İsmayılova və tarix müəllimi Vasif Səmədov çıxış edərək şagirdlərə Mübariz İbrahimovun həyat yolundan, qəhrəmanlığından bəhs etdilər , Mübariz kimi hər zaman mübariz olmağı tövsiyə etdilər.

***Afət Piriyeva,***
***şəhər 9 saylı tam orta məktəbin təşkilatçısı.***

# Müsabiqə qalibləri mükafatlandırıldı



Navahı qəsəbə Rauf Qənbərov adına 2 saylı tam orta məktəbdə müntəzəm olaraq bilik yarışları, disputlar, viktorinalar, müsabiqələr keçirilir. Eyni zamanda tarixi günlər, bayramlar geniş qeyd edilir. Bu tədbirlərdən biri də bu günlərdə keçirilən "Bilik" yarışı idi. Riyaziyyat üzrə keçirilən yarış V-XI sinif şagirdləri arasında altı qrupda aparılırdı. Yarışa riyazi bilikləri güclü olan şagirdlər cəlb edilmişdi. Verilən suallar açıq tipli məsələ və misallardan ibarət idi.

Bu da qrupların riyazi biliklərinin nə dərəcədə yüksək olduqlarını öyrənməyə imkan verirdi. Yarışın sonunda bütün suallara düzgün və səlist cavab verən "Pifaqor"qrupu birinci, "Dekart" qrupu ikinci, "Tusi" qrupu üçüncü yerə layiq görüldü. Qalib qruplar diplomlarla təltif olundular.

***Güldəstə Bağırova,***
***Navahı qəsəbə Rauf Qənbərov adına 2 saylı tam orta məktəbin müəllimi***

# Əhalinin ən çox müraciət etdiyi ünvan



***İndiki zamanda insanların demək olar ki, gündəlik müraciət etdiyi bir ünvan-xidmət sahəsi var. Bu ünvan şəhər və kəndlərdə yerləşən poçt şöbələri və filiallarıdır. Kimisi yaxınlarına məktub, bağlama, pul, kimisi də kommunal xərclərin ödənişi və digər işlərlə əlaqədar bu ünvana müraciət edir.***

Bəşər övladı qədim zamanlardan bəri informasiya mübadiləsinə məlumatların məsafədən-məsafəyə ötürülməsinə daim ehtiyac duymuşdur. Həyat inkişaf edir. İnformasiya texnologiyaları həyatın tələblərinə uyğun inkişaf etdikcə, insanların da xidmətə olan ehtiyacları artır. Onların bu ehtiyaclarını ödəmək xidmət təşkilatlarının üzərinə düşür. Belə təşkilatlardan biri rayonumuzda fəaliyyət göstərən "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin rayon filialıdır.

Müsahibimiz "Azərpoçt" MMC-nin rayon filialının müdiri Ayət Nadirovdur.

Qısa arayış: Nadirov Ayət Mirzağa oğlu 1962-ci il iyulun 13-də Sabirabad rayonunun Vladimirovka kəndində anadan olub. 1988-ci ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun (indiki İqtisad Universiteti) iqtisadçı ixtisası üzrə bitirib. Ailəlidir, 3 övladı var.

2014-cü il avqustun 20-də "Azərpoçt" MMC-nin Hacıqabul Poçt filialının müdiri təyin olunub.

**- Ayət müəllim, rəhbərlik etdiyiniz Poçt filialı rayon əhalisinin ən çox müraciət etdiyi xidmət təşkilatlarından biridir. Filialda hansı xidmətlər həyata keçirilir:**

1. Filialımızın xidmətlərinə kommunal xidmət haqlarının yığılması-buraya "Azəri Qaz"MMC, "Azər Enerji"ASC, "AzərSu" ASC ilə bağlanmış müqavilələrə əsasən kommunal xidmət: qaz, elektrik energisi, su, kanalizasiya haqlarının yığılması daxildir.

2. Banderolların, bağlamaların, kiçik paketlərin, məktubların qəbulu və göndərilməsi.

3.Teleqramların qəbulu və çatdırılması

4.Pensiya və müavinətlərin ödənişi xidməti

5.Sürətli pul köçürmə xidmətləri ("Zolotaya Korona", "Western Union","Kontakt")

6.Biznes xidmətləri: İstehsal xidməti, surətçıxarma və faks xidməti, kommersiya xidməti

7.Aylıq abunə telefon danışıq haqlarının, şəhərlərarası telefon danışıq haqlarının yığılması xidməti

8.Sığorta şəhadətnamələrinin satışı

9.SMS Bankçılıq xidməti

**- Filialda maliyyə xidmətləri necə yerinə yetirilir?**

- 25 may 2005-ci il tarixdə Azərbaycan hökuməti ilə Beynəlxalq İnkişaf Assosasiyası arasında imzalanan və Ölkə Prezidenti tərəfindən 25 avqust 2005-ci il tarixdə təsdiqlənən "İnkişaf krediti haqqında" Saziş çərçivəsində "Maliyyə xidmətlərinin inkişafı"layihəsi "Azərpoçt" MMC-nin Poçt şəbəkəsində uğurla tətbiq edilmişdir. Maliyyə xidmətlərinin tətbiqi nəticəsində "Azərpoçt" MMC-nin tabeli poçt filiallarında fiziki və hüquqi şəxslərə bank hesablarının açılması və əməliyyatların aparılması xidmətinin göstərilməsinə başlanılmışdır.

"Azərpoçt" MMC Milli Ödəniş Sistemlərinin tərkib hissəsi olan Mərkəzi Bankın AZİPS və XÖHKS sistemlərinə, eləcədə də SWIFT sisteminə qoşulmuşdur. ABŞ-in Citibank, Avstriyanın Refazen və Rusiyanın Sberbankında Azərpoçt MMC-yə xarici valyutalarla müxbir hesabları açılmışdır ki, Beynəlxalq bank əməliyyatları həmin hesablar vasitəsi ilə həyata keçirilir. O cümlədən ölkədaxili banklarda da müvafiq xarici valyuta müxbir hesabları açılmışdır. Göstərilən maliyyə xidmətləri arasında aşağıdakılar da yer almışdır:

1. Hüquqi və fiziki şəxslərə bank hesablarının açılması və bank əməliyyatlarının aparılması;

2. Kommunal xidmət haqlarının yığılması;

3. Beynəlxalq sürətli pul köçürmə xidmətləri;

4. Mobil rabitə operatorlarının abunə və danışıq haqlarının yığılması xidməti;

5. Pul köçürmələrinin qəbulu və çatdırılması;

6. Sığorta şəhadətnamələrinin satışı;

7. SMS bankçılıq xidməti;

8. Plastik kartların emissiyası;

**- Poçt filialı hansı struktur bölməsindən ibarətdir?**

- Filialımız 1 mərkəzi şöbədən, 1 şəhər şöbəsindən, 11 kənd poçt şöbələrindən ibarətdir. Kənd poçt şöbələrinə Atbulaq, Rəncbər, Qubalıbaloğlan, Navahı, Udulu, Qarasu, Padar, Muğan, Meyniman, Abdulabad, Talış kənd poçt şöbələri aiddir.

Məlumat üçün bildirirəm ki, Padar kənd poçt şöbəsi istisna olmaqla bütün kənd poçt şöbələri kompüterləşdirilərək sistemə qoşulmuşdur.Həmin şöbələrdə aparılan əməliyyatlar kompüter vasitəsi ilə həyata keçirilir.

2017-ci il üzrə filialımızın tarif gəlirləri 128580 manata qarşı 157038 manat olmuş, başqa sözlə 122% yerinə yetirilmişdir. Dövlət Başçısı cənab İlham Əliyevin əhaliyə rabitə və poçt xidmətlərinin daha da təkmilləşdirməsi haqqında imzaladığı fərman və sərəncamlara uyğun olaraq çalışırıq ki, əhaliyə xidmətin səviyyəsini gündən-günə yaxşılaşdıraq.

**- Xidməti işdə fərqlənən işçilərinizdən kimləri qeyd etmək istərdiniz?**

- Poçt əməliyyatları üzrə mühəndis Zaur Səmədov, Mərkəzi Şöbənin əməliyyatçısı Fəridə Adıgözəlova, poçt maliyyə xidməti üzrə mühəndis Cavid Kərimov, poçtalyonlardan Sədaqət Əliyeva, Nərgiz Zülfüqarova, Rəncbər kənd poçt şöbəsinin rəisi İlqar Dadaşov, Navahı kənd poçt şöbəsinin rəisi Mehman Mehdiyev öz işlərinin öhdəsindən bacarıqla gəlirlər. Filialda məktub və teleqramların korrespondesiyası və izlənməsi kompüter vasitəsilə işlənilir.

Məlumat üçün qeyd etmək istəyirəm ki, rayon rəhbərliyinin birbaşa əməyinin nəticəsidir ki, rayonda dayanıqlı şəkildə fasiləsiz olaraq işıq, qaz və su təchizatı əhalinin istifadəsinə verilmişdir. Həmin xidmətlər üzrə ödənişlər SMART tipli sayğaclarla təmin edildiyindən ödənişlər birbaşa poçt şöbələrində həyata keçirilir və təbii ki, bu da filialın gəlirlərinə öz müsbət təsirini göstərir. Bu həm rayon əhalisinin kommunal xidmətlərdən fasiləsiz olaraq istifadə etməsinə, həm də rayon iqtisadiyyatının inkişafı üçün bir töhfədir.

Son olaraq bildirmək istəyirəm ki, kollektivimizə göstərilən etimad və qayğıya cavab olaraq işlərimizi günün tələbləri səviyyəsində quraraq əhaliyə poçt-maliyyə xidmətinin daha da yaxşılaşdırılmasını təmin edəcəyik.

***Nazim Fətixanoğlu***



# Qəhrəmanlığın Mübariz İbrahimov zirvəsi

***Çox gözəl bir deyim var: Torpaq su ilə qarışarsa bərəkət, qan ilə qarışarsa Vətən olar.***

Tarix boyu bu torpağı öz qanı ilə suvarıb Vətənə çevirən, qəlbi Vətən eşqi çırpınan igidlərimiz çox olub. Bütün dünyaya qəhrəmanlıq dərsi keçən igidlərimizdən biri də xalqımızın Milli qəhrəmanı Mübariz İbrahimovdur. O, Mübariz İbrahimov ki, insanlara filmlərdə göstərilən fantastik hadisələrin real həyatda da baş verə biləcəyini sübut etdi. Geriyə sağ qayıtmayacağını bilə-bilə düşmənin canına elə qorxu saldı ki, mənfur düşmən çətin ki, onun adını yaddan çıxarsın.

Bu gün aramızda olmasa da, qəhrəmanlığı ilə böyük tarix yazan Mübariz İb-



rahimovun dünyaya göz açdığı 7 fevral tarixi artıq hamımız üçün xüsusi əhəmiyyətli bir gündür. Ölkəmizin hər yerində bu tarix xüsusi coşqu ilə qeyd edilir.

Fəaliyyət göstərdiyim şəhər 8 saylı humanitar fənlər təmayüllü məktəb-liseydə "Qəhrəmanlığın Mübariz İbrahimov zirvəsi" adlı ədəbi-bədii kompozisiyada da milli qəhrəmanın keçdiyi şərəfli yol, qəhrəmanlıq duyğuları əks olunmuşdu.

Şagirdlərin qəhrəmanlıq mövzusunda ifa etdikləri şeir və mahnılar, eləcə də qəhrəmanın həyatını əks etdirən videoçarxlar tədbir iştirakçılarına duyğulu anlar yaşatdı.

Tədbirdə məktəbin hərbi rəhbəri Ramil İbişov, rayon Təhsil Şöbəsinin müdir müavini Balaxanım Ələsgərova, rayon İcra Hakimiyyəti Başçısı Aparatının məsul işçisi Natiq Mustafayev, rayonumuzda yerləşən daxili qoşunların N saylı hərbi hissənin nümayəndələri İ. İbayev, R, Rəhimov, Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin əməkdaşı Ə.Nəbiyev, Qarabağ Müharibəsi Veteranları Şurasının sədri M.Süleymanov, Qarabağ Müharibəsi Əlilləri Cəmiyyətinin sədri R.Məmmədov, rayon Polis Şöbəsinin əməkdaşı N.Həsənov, rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Məhəmməd İsayev, məktəb valideyn komitəsinin sədri Y.Teymurov, Aprel döyüşlərinin iştirakçısı və qazisi R.Qarayev, rayonumuzda Mübariz İbrahimovun adını daşıyan karate idman klubunun təlimatçısı E.Şəfiyev çıxış edərək qəhrəmanın keçdiyi şərəfli ömür yolundan, qəhrəmanlığından söz açdılar.

Sonda tədbirin hazırlanıb araya-ərsəyə gəlməsində əməyi olan müəllim və şagirdlər Fəxri fərmanla mükafatlandırıldılar.

***İlqarə Rzayeva,***
***şəhər 8 saylı humanitar fənlər təmayüllü məktəb liseyin müəllimi***

# Şəhidin xatirə günü qeyd olundu

***Yaşasaydı 45 yaşı tamam olacaqdı Vüqarın. Lakin vətən sevgisi Vüqarı Tanrının ali məqamına - uca şəhidlik zirvəsinə yüksəltdi. 1992-ci il dekabrın 21-də Qubadlı rayonunun İşıqlı kəndində şiddətli döyüş zamanı qəhrəmanlıqla şəhid oldu.***

Çox illər keçəcək, qərinələr ötəcək, çox şeylər dəyişəcək. Dəyişməyən yalnız əbədi olanlardır. Şəhid yaşı elə yaşdır ki, heç bir təqvim ili, zaman vahidi ilə ölçüyə gəlməz. Yüz illər keçsə belə, onun neçə yaşını qeyd etsək də Vüqar 19 yaşında qalacaq. Təhsil aldığı məktəbin qarşısında dayanıb baxışlarını uzaq üfüqlərə zilləyən 19 yaşlı heykəl Vüqarın saçları heç vaxt ağarmayacaq, qocalmayacaq.

Yüzlərlə uşağın sevincli səsküyünə, böyüməsinə şahidlik edən Vüqar nə yorulur, nə usanır. Soyuqda, istidə, şaxtada, günəşdə hər səhər Vətənin dan şəfəqləri ilə birgə məktəbliləri qarşılayıb salamlayır, sağollaşıb



yola salır.

Düz 26 ildir ki Vüqarın 19-dan sonrakı doğum günü doğmaları, əzizləri və adını daşıyan məktəbin şagird və müəllim kollektivi ilə birgə Onsuz qeyd olunur.

Muğan qəsəbə tam orta məktəbi hər il bu günə xüsusi hazırlaşır.

Hər il olduğu kimi bu il də fevralın 6-sı şəhidin doğum günü Muğan qəsəbə tam orta məktəbdə geniş qeyd olunub. Tədbirdə məktəbin şagird və müəllim kollektivi, şəhidin anası, Muğan qəsəbə tam orta məktəbinin müəllimi Gövhər Məmmədova, rayon Təhsil Şöbəsinin hərbi metodisti Nəriman Ağayev, rayon Qarabağ müharibəsi Veteranlar Şurasının sədri Mehman Süleymanov, fəxri nümayəndə Yaqub Teymurov, Aprel döyüşlərinin iştirakçısı Rizvan Qarayev, Meyniman kənd tam orta məktəbinin hərbi rəhbəri, Qarabağ müharibəsi veteranı Atamoğlan Şıxəliyev və Muğan qəsəbə tam orta məktəbinin hərbi rəhbəri Nemət Qarayev iştirak edirdilər.

Şagirdlər şəhidlərə, vətənə həsr olunmuş şeirlər söylədilər, hərbi-vətənpərvərlik mahnıları ilə hazırladıqları kompozisiyanı təqdim etdilər. Şəhidin qısa, lakin mənalı ömür yolunu əks etdirən videoslayd nümayiş etdirildi.

Tədbirin sonunda Aprel döyüşlərinin iştirakçısı Rizvan Qarayev, rayon Təhsil Şöbəsinin hərbi metodisti Nəriman Ağayev çıxış edərək Vətən məfhumunun müqəddəsliyindən, şəhid adının əbədiliyindən danışdılar, işğal altında olan torpaqlarımızın azad olunması üçün gənclərimizin hər an hazır olduqlarını bildirdilər.

Tədbirin sonunda şəhidin anası Gövhər Məmmədovaya və Muğan qəsəbə tam orta məktəbinin direktoru Kamil Cəfərova "Vətən Naminə Qarabağ Veteranları"İctimai Birliyi tərəfindən gənc nəslin vətənpərvərlik ruhunun yüksəldilməsində göstərdiyi xidmətlərə görə Fəxri Fərman təqdim olundu.

***Sara Şirinova,***
***Muğan qəsəbə tam orta məktəbin müəllimi***

# HACIQABUL

№ 03 (683) 14 fevral 2018-ci il

## 2018-ci ilin fevral ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə YADDAŞ

**2018-ci ilin yanvar ayına görə vergi ödəyiciləri tərəfindən tədiyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,

- Aksiz bəyannaməsi,

- Yol vergisi bəyannaməsi,

- Mədən vergisi bəyannaməsi,

- Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsi və

- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi cari ilin fevralayının 20-dən gec olmayaraqvergi orqanınatəqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrəhesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş vergininbəyannaməsicari ilin fervalayının 20-dən gec olmayaraqvergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

- Muzdlu işlə əlaqədar 2018-ci ilin yanvar ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin fevral ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2018-ci ilin 1-ci rübü üzrə bəyannaməni cari ilin aprel ayının 20-dən gec olmayaraq təqdim edirlər).

- Xüsusi notariusların 2018-ci ilin yanvar ayı üzrə hesabladığı gəlir vergisi cari ilin fevral ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2018-ci ilin 1-ci rübü üzrə bəyannamə car ilin aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

**Əmlak vergisinin ödəyiciləri olan müəssisələr**

- 2018-ci ilin 1-ci rübü üzrəhesablanmışəmlak vergisinin cari ödəmələrini fevral ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

***

Bəyannamələr müəyyən edilən müddətdə təqdim edimədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).

Hörmətli vergi ödəyiciləri, Siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi Sizə tövsiyə edirik.

***5 saylı Ərazi Vergilər İdarəsi***

# Mənzillərinizi yanğından qoruyun

***Od insanları işıq və istiliklə təmin edir. Yer üzərində odsuz yaşamaq qeyri mümkündür. Od hər yerdə və hər zaman lazımdır. Lakin odla düzgün davranmadıqda o insanın düşməninə çevrilir, ağılagəlməz müsibətlərə, faciələrə səbəb olur. İnsanlar od əldə etdikləri gündən ondan istifadə etdikləri kimi onunla mübarizə də aparıblar. Yanğına qarşı mübarizə yanğın təhlükəsizliyi qaydalarına düzgün riayət etməkdən başlanır.Yaşayış evlərində yanğınlar od ilə ehtiyyatsız davranmanın müxtəlif növlərindən, məişətdə işlədilən elektrik qızdırıcı cihazlarından, həmçinin təbii və mayeləşdirilmiş qaz ilə işlədilən cihazlardan düzgün istifadə edilmədikdə baş verir.***

Artıq qışın kəskin soyuqları başlayıb. Yaşayış evlərinin isidilməsində elektrik və qaz cihazlarından, eləcə də müxtəlif yanacaqla işləyən sobalardan istifadə olunur. Bütün bunlar mənzillərdə yanğın təhlükəsizliyi qaydalarına vətəndaşlar tərəfindən əməl olunmasına daha çox məsuliyyət tələb edir. Uşaqların od ilə dəcəlliyi mənzillərdə yanğınlara səbəb olur. Uşaqları mənzildə və yaxud soba olan otaqda tək qoyub qapını bağlamaq olmaz, yanmaqda olan sobaya və qızdırıcı cihazlara nəzarət etməyi onlara tapşırmaq olmaz.

Qış mövsümündə elektrik verilişində bəzi hallarda fasilələr yarandığından mənzilləri işıqlandırmaq məqsədilə şamdan və neft lampasından istifadə edirlər, bu zaman adi ehtiyyat tədbirləri tamamilə unudulur. Bəzən vətəndaşlar tərəfindən mənzillərdə şamdan istifadə edərkən şam yanmayan altlıqlar üzərində deyil, papiros və ya kibrit qutuları üzərində, stolda və ya pəncərə altı taxta üzərində yapışdırılaraq yandırılır, eləcə də onları nəzarətsiz qoyub gedirlər. Bu zaman şam yıxıla bilər, əgər yanmaqda davam edərsə, yanğın onun altındakı yanar konsturuksiyalara keçərək inkişaf edər. Bəzən də şamları istilik nəticəsində parçalana bilən altlıqlar üzərində qoyurlar ki, nəticədə şam yanıb qurtararkən öz altlığını sındıraraq yanğının baş verməsinə səbəb olur. Odur ki. mənzillərdə şamdan istifadə edərkən, onları sabit metal şamdana taxmaq lazımdır. Təhlillər göstərir ki, baş vermiş yanğınların bir hissəsi elektrik avadanlıqlarının quraşdırılması və istismarı qaydalarına düzgün riayət edilməməsi nəticəsində baş vermişdir. Elektrik təsərrüfatında yanğınlar əsasən 3 səbəbdən baş verir: artıq yükləmədən, qısa qapanmadan və yüksək keçirici müqavimətdən. Elektrik dövrəsinin artıq yüklənməsi yanğına səbəb olan əsas amillərdən biridir. Belə ki, elektrik xəttindən cəryan keçərkən həmişə hərarət əmələ gəlir. İşlədiləcək elektrik cihazlarının nominal gücünə uyğun müvafiq en kəsikli elektrik naqilləri seçilməlidir. Əks halda elektrik naqili həddən artiq qızaraq naqilin izolyasiyasının keyfiyyətini tədricən itirir, bu da öz növbəsində elektrik təsərrüfatında qəza yaranmasına və yanğın baş verməsinə səbəb olur. Belə hal bir rozetkaya bir neçə elektrik cihazı qoşulduqda da baş verə bilər. Elektrik təsərrüfatından baş verən yanğınların səbəblərindən biridə qısa qapanmadır. Qısa qapanma izolyasiya olmayan və ya izolyasiyası zədələnmiş naqillərin bir-birinə toxunması nəticəsində baş verir. Bu zaman naqillər o qədər qızır ki, metal damarlar əriyərək qığılcım yaradır. Qısa qapanma baş vermiş hissənin yaxınlığında yana bilən konstruksiyalar dərhal alışır. Elektrik şəbəkəsində yüksək keçirici müqavimətin yaranması nəticəsində baş vermiş yanğınlarla tez-tez rastlaşırıq. Yüksək keçirici müqavimət, naqillərin sonluqlarının birləşdirilməsi xüsusi bərkidicilərlə həyata keçirilmədikdə, həmçinin nasaz elektrik rozetkaları və çəngəllərində olan boşluqlar nəticəsində yaranır. Hər bir vətəndaş bilməlidir ki, qısa qapanma və həddən artıq yüklənmə nəticəsində mənzillərdə baş verəcək yanğınların qarşısını almaq üçün müəyyən yükə hesablanmış əriyən qoruyucu və ya avtomatik açar quraşdırılmalıdır. Qısa qapanma və ya həddən artıq yüklənmə olduqda qoruyucunun əriyən məftili, naqillər təhlükəli temperatura çatmamış qırılır və təhlükənin qarşısı alınır. Əsasən yaşayış evlərində elektrik xətlərinin çəkilişi zamanı vətəndaşlar elektrotexniki norma və qaydaların tələblərini pozurlar. Belə ki, həmin işlərin mütəxəssis elektriklər tərəfindən deyil, özləri və ya digər bu işi bilməyən insanlar tərəfindən çəkilməsinə və qurulmasına yol verirlər. Bu zaman elektrik xətlərinin yanar konstruksiyalar üzərində çəkilməsinə, qoruyucu və avtomatların düzgün olmayan yerlərə bərkidilməsi xətlərdə baş vermiş hər hansı qəza zamanı yanğınlarla nəticələnir.

Bir çox yaşayış evlərində təbii və maye qazla işləyən müxtəlif cihazlardan istifadə olunur. Məişətdə işləyən qaz cihazlarından törənən yanğınların əsas səbəbi boru kəmərindən, birləşmə qovşaqlarında kipliyin pozulması və qaz sobalarının odluqlarından qazın sızmasıdır. Mayeləşdirilmiş qaz təbii qazdan daha çox yanğın təhlükəli xassələrə malikdir. Qaz balonları qızdırıcı cihazlardan ən azı bir metr kənarda yerləşdirilməlidir. Belə balonları qızdırmaq, zir-zəmidə saxlamaq qəti qadağandır. Mənzillərinizdə qaz sızmasını hiss etdikdə ümumi qaz kranını bağlamaq, mənzilin havasını təmizləmək üçün qapı-pəncərələri açaraq hava cəryanı yaratmaq lazımdır. Bu zaman mənzillərdə elektrik işlədicilərini dövrəyə qoşmaq və ya dövrədən ayırmaq olmaz. Maye qaz balonlarından istifadə zamanı yanğın təhlükəsizliyi qaydalarının pozulması nəticəsində bir çox yanğın və partlayış hadisələri ilə rastlaşırıq. Qış mövsümündə bir çox yaşayış evlərində bərk yanacaqla işləyən sobalardan istifadə olunur. Sobalar qurularkən, həmçinin istismar edilərkən yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmalıdır. Yanğın Təhlükəsizliyi standartlarının tələblərinə və texniki şərtlərə cavab verməyən sobalardan istifadə olunmasına icazə verilmir. Sobalar yanmayan və istilik keçirməyən altlıqlar üzərində qurulmalı, onun qalama qapısı önündə döşəməyə 70x50 sm ölçüdən kiçik olmayan metal təbəqə ilə mismarlanmalıdır. Qalanmış sobanı nəzarətsiz və ya az yaşlı uşaqların nəzarəti altında qoymaq qadağandır. Sobanın ətrafinda odun qurutmaq, sobaya həddən artıq odun atmaq, sobaları tez alışan mayelərlə qalamaq qəti qadağandır.

Yanğın hadisələrindən həyatınızı və əmlakınızı qorumaq üçün, mənzillərinizdə nəzərdə tutulmuş yanğın təhlükəsizlik qaydalarına düzgün əməl edilməsindən çox aşlıdır. Qeyd olunan yanğın təhlükəsizlik qaydalarının gözlənilməsi həyatınızı və əmlakınızı yanğından qorumağa tam əsas verir. Hər bir vətəndaş Yanğın Təhlükəsizlik Qaydalarına düzgün əməl olunmasına görə məsuliyyət daşıyır.

***DYNX-nin***
***Muğan regional Dövlət Yanğın Nəzarəti İdarəsi***

## Vətəndaşların nəzərinə!

*Rayon əhalisinin nəzərinə çatdırılır ki, Azərbaycan Respublikasının Daxili İşlər Naziri cənab Ramil Usubov fevral ayının 24-də Şirvan şəhər Polis Şöbəsində vətəndaşların qəbulunu keçirəcəkdir. Maraqlananlar Hacıqabul rayon və Şirvan şəhər Polis Şöbələrinə müraciət edə bilərlər.*

## 2018-ci ildə rayon prokurorluğunun əməkdaşları tərəfindən vətəndaşların yaşayış yerlərində qəbuluna dair CƏDVƏL

| S/№ | Qəbul yeri | Qəbul tarixi | Qəbul edən şəxsin soyadı, adı və vəzifəsi |
|---|---|---|---|
| 1. | Hacıqabul rayonu,Muğan qəsəbə İƏD-si | 24 yanvar 2018-ci il | Rayon prokuroru Rövşən Maqsudov |
| 2. | Hacıqabul şəhər İƏD-si | 15 fevral 2018-ci il | Rayon prokuroru Rövşən Maqsudov |
| 3. | Hacıqabul rayon Ələtli kənd İƏD-si | 14 mart 2018-ci il | Rayon prokuroru Rövşən Maqsudov |
| 4. | Hacıqabul rayon Abdulabad kənd İƏD-si | 27 aprel 2018-ci il | Rayon prokuroru Rövşən Maqsudov |
| 5. | Hacıqabul rayon Talış kənd İƏD-si | 21 may 2018-ci il | Rayon prokuroru Rövşən Maqsudov |
| 6. | Hacıqabul rayon Navahı kənd İƏD-si | 11 iyun 2018-ci il | Rayon prokuroru Rövşən Maqsudov |
| 7. | Hacıqabul rayon Meyniman kənd İƏD-si | 27 iyul 2018-ci il | Rayon prokuroru Rövşən Maqsudov |
| 8. | Hacıqabul I Udulu kənd İƏD-si | 16 avqust 2018-ci il | Rayon prokuroru Rövşən Maqsudov |
| 9. | Hacıqabul rayon Rəncbər kənd İƏD-si | 20 sentyabr 2018-ci il | Rayon prokuroru Rövşən Maqsudov |
| 10. | Hacıqabul rayon Şorbaçı kənd İƏD-si | 11 oktyabr 2018-ci il | Rayon prokuroru Rövşən Maqsudov |
| 11. | Hacıqabul rayon II Udullu kənd İƏD-si | 20 noyabr 2018-ci il | Rayon prokuroru Rövşən Maqsudov |
| 12. | Hacıqabul rayon Qarasu kənd İƏD-si | 12 dekabr 2018-ci il | Rayon prokuroru Rövşən Maqsudov |

## Elan

Rayon Aqrar İslahat Komissiyasının 2004-cü il 27 sentyabr tarixli qərarı ilə Qubadov Yadulla Abdulla oğlunun adına verilmiş JN-0050, kodu 91004078 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 02 fevral tarixli qərarı ilə Tağıyev Ramazan Ataş oğlunun adına verilmiş JN-0055, kodu 91006027 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Rayon Aqrar İslahat Komissiyasının 05 iyul 2004-cü il tarixli qərarı ilə Aslanov Əliyusif Yedigar oğlunun adına verilmiş JN-895, kodu 91000018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Pirsaat Qış Otlaqlarının Su Təminatı Sistemləri İstismarı İdarəsinin rəisi Mafisəd Cəfərova anası

**Şəfiqə xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***

Pirsaat Qış Otlaqlarının Su Təminatı Sistemləri İstismarı İdarəsinin kollektivi idarənin rəisi Mafisəd Cəfərova anası

**Şəfiqə xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***

"Hacıqabul" qəzetinin kollektivi Mafisəd Cəfərova anası

**Şəfiqə xanımın**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

***

Rayon Suvarma Sistemləri İdarəsinin rəisi İbrahim İbrahimov və kollektivi Mafisəd Cəfərova anası

**Şəfiqə xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

***

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi Mafisəd Cəfərova anası

**Şəfiqə xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**HACIQABUL**

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi
Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son Dakika" çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200